*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(5) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:28.06.2024*
*Kabul tarihi |Accepted:20.09.2024*
*Yayın tarihi |Published:25.10.2024*

**Sevinc Rəhimova**

*https://orcid.org/0000-0001-5449-6978*
*PhD in history, dosent, A. A. Bakikhanov of the Institute of History ANAS, Azerbaijan, rehimova.74@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Rəhimova, S. (2024). Şimali Azərbaycan Cənubi Qafqazın vahid dövlətçilik sistemində *Akademik Tarih ve Düşünce Dergisi, 11* (5), 3652-3662.

# Şimali Azərbaycan Cənubi Qafqazın vahid dövlətçilik sistemində

***Xülasə***

*Monarxiyanın devrilməsi ilə nəticələnən 1917-ci il inqilabı Cənubi Qafqazda da təsirsiz ötüşmədi. Bir anda mövcud idarə üsulunun dəyişməsi bölgədə köklü dəyişikliyin xəbərçisi idi. Cənubi Qafqazda yaşayan xalqlar öz müqəddəratlarını həll etmək istəyindən çıxış edərək yerli özününidarə orqanları yaratdılar. Vahid dövlətçilik sistemində, birgə siyasi ideyaların həyata keçirilməsi üçün yaradılan Zaqafqaziya Federativ Respublikası, Zaqafqaziya Seymi ərazi iddialar və milli münaqişələr ucbatından uzunömürlü olmadı. Buna baxmayaraq bu qurum bölgənin gələcək statusunun müəyyənləşdirilməsində mühüm rola malik olmuşdur. Uzun müddət imperiya tərkibində idarə olunan Cənubi Qafqaz nəhayət milli müstəqillik uğrunda mübarizədə ilk addımlarını atdı. Şimali Azərbaycan vahid dövlətçilik sistemində mövcudluğun mümkünsüz olduğunu anlamış və naticədə öz müstəqilliyini elan etmişdir.*

***Açar sözlər:*** *Cənubi Qafqaz, Zaqafqaziya seymi, vahid idarəetmə sistemi, milli mübarizə*

# North Azerbaijan is a unit of the South Caucasus in the state system

***Abstract***

*The revolution of 1917, which resulted in the overthrow of the monarchy, did not leave an impact on the South Caucasus. The change of the existing form of government for a period was a harbinger of a radical change in the region. The peoples living in the South Caucasus formed local self-government bodies in line with their desire for self-determination. The Federal Republic of Transcaucasia, which was created to realise common political ideas in a unified state system, did not survive for long due to*

BY NC
Creative Commons Licence

*territorial claims of the Transcaucasian Seym and national conflicts. However, this institution had an important role in determining the future status of the region. The South Caucasus, long ruled as part of the empire, finally took its first steps in the struggle for national independence. North Azerbaijan realised that it was impossible to exist in a unified state system and consequently declared its independence.*

***Keywords:*** *South Caucasus, Transcaucasian Seym, unified system of government, national struggle*

## Giriş

XX əsrin əvvələrində Cənubi Qafqazda vahid dövlətçilik sisteminin yaradılması problemi Azərbaycan tarixşünaslığında hər zaman maraq yaradan məsələlərdən biri olmuşdur. 1917-1920-ci illərdə Cənubi Qafqazda cərəyan edən hərbi-siyasi və ictimai proseslər yalnız azərbaycanlı tarixçilər deyil eyni zamanda sovet, gürcü və erməni tarixçilərinin çoxsaylı əsərlərində ətraflı təsvir edilmişdir. Bu əsərlərdə real mənzərə ciddi şəkildə sadələşdirilir, bütün ziddiyyətlər isə həll olunmamış qalırdı. Xüsusilə ərazi və etnik münaqişələrin tədqiqi ilə bağlı vəziyyət daha mürəkkəb idi. 1918-1920-ci illərdə Ermənistan-Azərbaycan münasibətlərini ətraflı və qərəzsiz şəkildə öyrənilməsi, yalnız postsovet dövründə mümkün olmuşdur. Məhz Sovetlər Birliyinin dağılmasından və arxivlərin istifadəsi mümkün olduqdan sonra 1917-1920-ci illər Cənubi Qafqaz tarixi daha obyektiv öyrənilmişdir.

## 1. Çar İmperiyasının dağılması ilk qurumlar

İmperiyanın məhvi Cənubi Qafqazda qarışıqlığa səbəb oldu. İmperiyanın mərkəzində baş verən inqilab Cənubi Qafqaz xalqlarının milli özünüdərk hislərini oyatdı (Darabadi, 2012, s.110). Regionda bolşeviklər fəallaşdı. Yaradılan Müvəqqəti Hökümətin ən vacib vəzifəsi mərkəz üçün əhəmiyyətli olan Cənubi Qafqazın idarə olunması mexanizmini nizama salmaq idi. Bu məqsədlə 9 mart 1917-ci il tarixində V.A. Xarlamovun sərdliyi ilə Xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Tərkibində azərbaycanlı (M. Cəfərov), erməni (M. M. Papacanov) və gürcü (K. Abaşidze) nümayəndələri olan bu komitə Müvəqqəti Hökümət tərəfindən tanındı və 1917-ci ilin payızınadək Cənubi Qafqazdakı vəziyyətə qismən nəzarət etdi.

1917-ci ilin payızından, 1918-ci ilin yayınadək olan dramatik, siyasi dəyişikliklərlə zəngin olan bu tarixi dövr Azərbaycanda milli dövlətçilik ideyalarının yayılmasında və inkişafında xüsusi rol oynamış, milli hərəkatın siyasi-ideoloji hədəflərini müəyyənləşdirmişdir (Rüstəmov vd., 2018, s.12). Bəhs edilən tarixi çərçivədə baş verən hadisələrə diqqət çəkməyi məqsədəuyğun hesab edirik. Cənubi Qafqazın siyasi elitası 11 noyabr tarixində Tiflisdə toplaşaraq müstəqil hakimiyyətin yaradılması haqqında müzakirələr aparmışlar. Gürcü sosial demokrat partiyası (menşeviklər), Musavat, Daşnaksutyün və eserlər 14 noyabr tarixində yerli idarəetmə orqanı olan Zaqafqaziya Komissarlığını yaratdıqlarını elan edirlər (Bagirova, 2007,

s. 103). Bu qurumun yaradılması Cənubi Qafqazda siyasi həyatın milliləşdirilməsinin göstəricisi idi. (Rüstəmov, 2018, s. 81). Xəlil bəy Xasməmmədov, Məhəmməd Yüsif Cəfərov, Fətəli xan Xoyski, Xudadat bəy Məlik-Aslanov Milli Şuranın maraqlarını təmsil edirdi.

Yeni yaranmış qurumda təmsil olunmaqlarına baxmayaraq, Musavatçılara münasibət birmənalı deyildi. Milli hərəkatın nümayəndələri daxili problemlərin həllində fokuslanaraq Azərbaycanda hərbi quruculuq işinin tez bir zamanda nizamlanmasının vacibliyini anlayırdılar. Hələ 1917-ci il 5 noyabr tarixində Gəncədə toplanmış I Qafqaz Müsəlman Hərbi qurultayında milli təhlükəsizliyin qorunması üçün hərbi qüvvələrin yaradılmasının əhəmiyyəti müzakirə olunmuşdu. Bakı Sovetinin Hərbi İnqilab Komitəsi və Xüsusi Zaqafqazıya Komitəsinin da erməni milliyyətçilərinin silahlanmalarına göz yumub azərbaycanlıların hərbi qüvvə yataqmaqlarına qarşı çıxmaları milli hərəkatın nümayəndələrinin narahatlığının nə qədər əsaslı olduğunu bir daha göstərirdi. Xüsusi Zaqafqaziya Komitəsi erməni daşnaklarının müsəlman əhaliyə qarşı qırğınlarının qarşısını ala bilmədiyinə görə Azərbaycan milli təşkilat və cəmiyyətləri 1917-ci martın 27-də Azərbaycan Milli Şurasının Müvəqqəti İcraiyyə Komitəsini yaratdılar. Mərkəzin tanıdığı XZK-si xalqların maraqlarını müdafiə edə bilmədiyinə görə yerlərdə milli nümayəndələrdən ibarət partiyalar rəğbət görməyə başladı. Cənubi Qafqazda faktiki olaraq Xüsusi Zaqafqaziya Komitəsi, bolşevik sovetləri və yerli milli qüvvələr tərəfindən yaradılmış milli Sovetlər mövcud idi.

## 2. Azərbaycan siyasi elitasının yeni yaranan qurumdakı gərgin fəaliyyəti

1917-ci ilin noyabrında Ümumrusiya Müəssislər Məclisinə keçirilən seçkilərdə bütün Cənubi Qafqaz bir dairədən ibarət idi, oradan 33 deputat seçildi. Cənubi Qafqazda vahid idarəçilik sistemin qurulması yolunda ən mühüm problemlərdən biri ərazi mübahisələri idi. Dağılan Qafqaz cəbhəsindən geri çəkilən daşnak silahlı dəstələrinin azərbaycanlı yaşayış insanlara qarşı kütləvi qırğınlar törətməsi vəziyyəti xüsusilə ağırlaşdırdı. 1917-ci ilin martında yaradılan və yerli idarəetmə orqanı olan Xüsusi Zaqafqaziya Komitəsi regiondakı hadisələrin qarşısının ala bilməməsi onsuz da gərgin vəziyyəti bir qədər mürəkkəbləşdi. Azərbaycan bu idarəçilik sistemində hüquqları müdafiə olunmayan tərəf idi. Qonşu dövlətlər tərəfindən ərazi iddiaları və müsəlman əhaliyə qarşı aparılan etnik təmizləmə siyasəti davamlı şəkildə davam edirdi.

1917-ci ilin payızında Rusiya imperiyasının süqutundan bir müddət az sonra Cənubi Qafqazda Zaqafqaziya Federasiyasının yaradılması elan edildi. (Payps, 2005, s. 52). Yeni federasiyanın yerli orqanlar tərəfindən necə qarşılanması əlbəttə ki, ayrı bir müzakirə obyektidir. Bu məsələyə təqdim olunan işin predmeti olmadığından onun şərhini verməyə

lüzum yoxdur. Zaqafqaziya Federasiyası onsuz da uzun ömürlü ola bilmədi. Cənubi Qafqaz regionunda yaşayan qonşu xalqlar arasında etnik, dini, dil, sosial, mədəni və digər fərqliliklərin yaratdığı kəskin ziddiyyətlər səbəbindən lap əvvəldən məhvə məhkum edilmişdir. Etnik qrupların tarixən formalaşmış çarpaz məskunlaşması səbəbindən Cənubi Qafqazın bir çox ərazilərində yüksək səviyyədə münaqişə potensialı qalmışdır. Rusiya İmperiyası süqutundan sonra, sərhədləri aydın olmayan üç müstəqil respublikanın elan edilməsinə baxmayaraq, əvvəlki ərazi iddiaları qüvvədə qalırdı. Onların hər birinin qonşularının fikrindən fərqli olan öz sərhədləri haqqında təsəvvürləri var idi. Hər biri üçün birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ qonşu ölkələrlə sərhədlərin delimitasiyası haqqında sazişlərin bağlanması idi. Lakin məhz bu üç respublika arasında problemə çevrildi və bir sıra dramatik hadisələrə səbəb oldu.

Azərbaycan və Ermənistan Dağlıq Qarabağ, Zəngəzur, Naxçıvan, Şərur-Dərələgəz; Gürcüstan və Ermənistan Borçalı mahalı, Lori və Ahalkalaki; Azərbaycan və Gürcüstan Zaqatala rayonu, Sığnaq və Borçalı mahalı uğrunda mülkiyyət hüququ ilə bağlı mübahisə edirdi. 1918–1920-ci illərin ərazi mübahisələri, həm kommunistlərə qoşulan yerli elitanı, həm də “burjua millətçiləri”ni (Azərbaycanda müsavatçılar, Ermənistanda daşnaklar və Gürcüstanda menşeviklər) eyni dərəcədə narahat edirdi (Rumyantsev, 2011, s. 49-50). 1918-ci il fevralın 22-də Cənubi Qafqazdan Ümumrusiya Müəssislər Məclisinə seçilmiş deputatların yığıncağında Zaqafqaziya Seyminin yaradılması haqqında qərar qəbul edildi. (Muxanov, 2019, s.252). Cənubi Qafqazda yerli idarə orqanı kimi fəaliyyətə başlayan Zaqafqaziya seymində Azərbaycanı müsavatçılar, onlara qoşulmuş bitərəf demokratlar - 30 nəfər təmsil edirdi. Seymdə həmçinin gürcü menşeviklər, erməni daşnakları, İttihadçılar (Rusiyada müsəlmanlar fraksiyası) və d. nümayəndələr təmsil olunurdular. Zaqafqaziya Seymində Azərbaycan siyasi partiyalarının ümumilikdə 44 nümayəndəsi var idi. (Bagirova, 2014, s.109) Beynəlmilləçi ideyalarla silahlanmış müsəlman sosialist bloku, Hümmət təşkilatı və islam birliyi uğrunda mübarizə aparan İttihad partiyası isə daha çox sentralist mövqe sərgiləyirdilər (Həsənov, 2020, s. 637). A. Çxenkelinin başçılıq etdiyi, tərkibində Məmməd Həsən Hacınskin və Xəlil bəy Xasməmədov və digər azərbaycanlıların olduğu nümayəndə heyəti Osmanlı İmperiyası ilə danışıqlar aparmaq üçün Trabzona gəldi. 1918-ci il martın 14-də Trabzonda Osmanlı dövləti qanunverici orqan nümayəndələri arasında sülh konfransı öz işinə başladı.

Osmanlı nümayəndələr bildirdilər ki, Seym nümayəndə heyəti Zaqafqaziya öz müstəqilliyini elan etmədiyi üçün danışıqlar aparıla bilən hüquqi şəxs ola bilməz. Yəni türklər özlərinin nəzarətində olan, onların fikrincə, bölgənin Rusiyadan ayrılmasını möhkəmləndirəcək Zaqafqaziya dövlətinin yaradılmasını istəyirdilər. Osmanlı nümayəndə heyətinin 1918-ci il martın 18-də verdiyi bəyanatda Zaqafqaziya dövlətinin elan edilməsi şərti qeyd edilmişdir

(Mamedzade, 2018, s. 12). Zaqafqaziya Seymində Azərbaycanı təmsil edən nümayəndələri erməni və gürcü nümayəndələri tərəfindən təzyiqlərə məruz qalırdılar. Belə ki, Qars, Ərdahan və Batum ərazilərinin Brest-Litovsk sülhünə əsasən Osmanlı dövlətinə güzəştə gedilməsi, davam edən Trabzon danışıqlarında Osmanlının mövqeyi erməni daşnakları və gürcülərin qəzəbinə səbəb olmuşdur. Seymin növbəti iclaslarının birində Brest- Litovsk müqaviləsinə etiraz edilmiş və onun hüquq normalarına zidd olduğu vurğulanmışdı. Azərbaycanlı nümayəndələrə olan bu münasibət dövrün şahidlərinin yazılarında da öz əksini tapmışdır. Belə ki, N.Yusifbəyli və X.Xasməmmədov vurğulayırdılar ki, Seymdə üstünlük menşeviklərdə idi və Seym üçlük tərəfindən rəhbərlik olunan diktatura idi (Qasanlı, 2011, s. 672). Seymin martın 25-də keçirilən iclasında Zaqafqaziya nümayəndə heyətinin üzvü M.Y. Mehdiyev Osmanlı nümayəndə heyətinin təklifini qəbul etməyi tələb edir. Əks halda danışıqlarda iştirak etməkdən imtina edəcəklərini bildirdilər (Mamedzade, 2018, s. 11-12). Regiondakı vəziyyətin də təsiri ilə mart ayından etibarən Zaqafqaziya Seymi son dərəcə ağır günlər yaşayırdı. Seymdaxili münasibətlər elə bir həddə çatmışdı ki, menşeviklər və daşnakların rəhbərliyi separat komissiyalar təsis edilirdi, lakin Musavat başda olmaqla müsəlman nümayəndələri bu komissiyalara daxil edilmirdi. (Həsənov, 2020, s. 634). Qeyri müsəlman fraksiyaların nümayəndələrindən əlavə Azərbaycan fraksiyasının digər üzvləri (Hümmət və müsəlman sosialist bolokunun üzvləri – S.R.) də Zaqafqazıya Müsəlman Milli Şurasını Osmanlı dəstəkləməkdə günahlandırırdılar. Hümmətçilər bu məsələdəki mövqelərini dəyişib menşeviklərlərin tərəfinə keçmişdi. Lakin Musavat, İttihad və birtərəflərin nümayəndələri bu ittihamları rədd edərək, indiyə qədər müsəlmanlara münasibətdə hərbi mükəlləfiyyət tətbiq edilmədiyindən, ikincisi, Osmanlı ilə bizi bağlayan dini əlaqələr baxımından müsəlmanların Osmanlıya qarşı hərbi əməliyyatlarda fəal iştirakı qəbuledilən olmadığını dedi (ARDA, s. 6). Trabzon danışıqlarında iştirak edən Seym nümayəndələri Osmanlıya güzəştə gediləcək ərazilər məsələsində də qarşı-qarşıya gəlmişdilər. Erməni və gürcü nümayəndələrinin Qars, Ərdəhanın və Batumun Zaqafqaziya dövlətinin tərkibində qalmasını istəyirdilər. Lakin həm Osmanlının güzəştə getməməmsi, həm də Zaqafqaziya rəhbərlərinin həqiqi vəziyyətlə barışmaq istəməməsi danışıqların pozulmasına gətirib çıxartdı (Azərbaycan tarixi, 2008, s. 96-98). Osmanlı tərəfi aprel ayının 6-da Zaqafqaziya Seyminə Brest-Litovsk müqaviləsinin şərtlərini tanımaq tələbini qoyur. Nümayəndə heyəti başçısı A. Çxenkeli başda olmaqla 13 apreldə Seymdə hökumətin və fraksiya nümayəndələrinin birgə iclasında danışıqların gedişi müzakirə olundu. Osmanlı haribə məsələsində fraksiyalar arasında yekdillik, vahid bir razılıq yox idi. Hətta azərbaycanlı

nemayəndələr də (Müsavat, İttidah və bitərəf qrup) türkləri öz iddialarından çəkinməyə çağırır və müharibə əleyhinə qətnamə qəbul etdilər.

1918-ci ilin aprel ayının ortalarından etibarən Seymdə vəziyyət elə bir həddə idi ki, Cənubi Qafqazın müstəqilliyinin qaçılmaz olduğunu təkidlə vurğulayırdılar. Nəticədə 22 aprel tarixində Zaqafqaziya Demokratik Federativ Respublikasının yaradılmasından sonra, 26 apreldə A. Çxenkelinin başçılığı ilə yeni hökümət təşkil edildi. Yeni yaranan hökümətdə A. Çxenkeli Baş nazir və Xarici işlər naziri, A.Xatisov Maliyyə naziri, N.Ramişvili Daxili işlər naziri, Q.Qeorqadze Hərbi naziri, X.Məlikaslanov Yollar və məlumat naziri, F. X. Xoyski Ədliyyə naziri, N. Yusifbəyli Maarif naziri, M.Hacınski Sənaye və ticarət naziri və s. təyin olunmuşdu. Qafqaz cəbhəsindəki vəziyyət və Zaqafqaziyanın müstəqilliyinin elan edilməsi ilə Seymin fəaliyyətində əhəmiyyət daşıyan məsələlər idi (Kaçaznuni, 1990, s. 12). Yeni yaranan dövləti Osmanlı dövləti heç bir tərəddüdsüz tanıdı. Bu yeni orqanın bir öncəkindən o qədər də fərqi yox. Belə ki, Cənubi Qafqazda yerləşən Azərbaycan, Ermənistanvə Gürcüstan vahid idarəetmədə birləşsələr də, vahid siyasi xəttə malik deyildi. Burada təmsil olunan siyasi partiyaların proqramlarının ana xəttini yenə də milli məsələlər təşkil edirdi. Buna görə də beynəlmilləlçilik tipli siyasi xəttlər utopiya xarakter daşıyırdı (Həsənov, 2020, s. 639).

Qeyd etmək lazımdır ki, 1917-ci ilin sonu - 1918-ci ilin əvvəlində Azərbaycan tədricən bolşevik və millətçi erməni partiyalarının və siyasi qruplarının regional fəaliyyət mərkəzinə, Yaxın Şərq və Qafqaz cəbhələrindən qayıdan və Azərbaycan şəhərlərində, ilk növbədə, Bakıda məskunlaşan minlərlə rus və erməni əsgərinin məskunlaşdığı məkana çevrilmişdi (Mustafazade, 2006, s. 22). Azərbaycanlı nümayəndələr Bakını daşnaklardan və bolşeviklərdən təmizləmək istəyirdi. Mart qırğınlarından sonra bu labüd idi. Belə ki, daşknaklar bolşeviklərə hər cür yardım etməklə müsəlman əhalinin məhv edilməsində əlindən gələni əsirgəməmişdi. Bakıda hakimiyyəti ələ keçirmək yolunda hər vasitədən istifadə etmişdilər. Hətta daşnakların lideri Kaçaznuni bunu açıq şəkildə dilə gətirirdi: "*Bakının erməni əhalisi nöqteyi nəzərindən bolşevik diktaturası, Müsavat diktaturasından daha münasib idi*" (Kaçaznuni, 1990, s. 21).

Zaqafqaziya Seyminin Azərbaycan fraksiyası müsəlman əhalisini qorumaq üçün təcili olaraq Bakıya qoşun yeridilməsini tələb etmiş, 1918-ci il aprelin əvvəlində knyaz Maqalovun komandanlığı ilə Seymin 2 min nəfərdən çox olan hərbi dəstələri Bakıya köçdü. Bakı quberniyasının azərbaycanlılarını xilas etmək üçün az-çox təsirli hərbi qüvvə göndərmək istəməyən Seym rəhbərliyinin mövqeyi azərbaycanlı fraksiyasını qane etmədi və ciddi hökumət böhranına səbəb oldu. Bakı Sovetinin daşnak-bolşevik qoşunları tərəfindən həyata keçirilən azərbaycanlıların soyqırımı təkcə Azərbaycanın deyil, bütövlükdə Zaqafqaziyanın taleyində dönüş nöqtəsi oldu.

Bolşeviklər və daşnaklarla mübarizədə azərbayacanlı nümayəndələr Osmanlıdan dəstək gözləyirdilər. Müsəlman əhalini daşnak S. Şaumyanın rəhbərliyi ilə Bakı Sovetinin zülmündən qorumaq naminə bu ittifaqa ehtiyac var idi. Azərbaycan fraksiyasının nümayəndələrinə aydın oldu ki, Bakını və xalqı xilas etmək bütün daxili imkanlar tükənib. Yalnız Osmanlı qoşunlarının bölgəyə sürətlə gəlməsinə ümid var idi. Osmanlı da öz növbəsində yardım etməyə hazır oluduğunu bildirmişdi. Bu istiqamətdə fəaliyyət göstərən M.H. Hacınski başçılığı ilə azərbaycanlı nümayəndələr Trabzonda Türkiyə tərəfi ilə danışqlar apararaq, sülh danışıqlarının bərpa edilməsinə nail olmuşdu (Qasanlı, 2011, s. 67).

Bolşevik və daşnakların müsəlman əhaliyə qarşı qırğınlar törətdiyi vaxtda Azərbaycan siyasi səhnəsindəki liderlər Cənubi Qahqazın rifahı üçün Osmanlı ilə münasibətləri nizamlamağa çalışırdılar (Balayev, 1998, s. 154-155). Həm Batumda, həm də Trabzondakı nümayəndələr Cənubi Qafqaza münasibətdə Osmanlının mövqeyinin yumşaltmağa səy göstərirdilər. Onların bu əziyyətləri belə seymdəki qeyri-müsəlman fraksiyaların nümayəndələri tərəfindən yalnış istiqamətə çəkilmiz və əsassız ittihamlara səbəb olmuşdu.

Yarandığı gündən etibarən Seym daxilidəki partiyaların bir-birinə qarşı münasibətdə etimad göstərməməsi, Osmanlı ilə sülh danışıqları zamanı en yüksək həddinə çatdı. Mayın 11 də Batumda Osmanlı ordusunun Qafqaz cəbhəsi komandanlığı ilə Seymin nümayəndə heyəti arasında sülh danışıqları başladı. Zaqafqaziya Seyminin nümayəndə heyəti Osmanlının Qars, Ərdəhan və Batum əyalətləri haqqında tələblərini tamamilə tanıdı və bununla da Brest-Litovsk müqaviləsinin müddəasını təsdiq etdi (Azərbaycan tarixi, 2008, s. 255). Xəlil Məntəşənin rəhbərlik etdiyi Osmanlı nümayəndə heyətinin əlavə ərazi tələbləri Seymdaxilində vəsiyyətin son hədd gərginləşməsinə səbəb oldu. Belə ki, bu tələblərə Ahalsıx, Alhalkəlik, Aleksandropol və Üçmədzin qəzasının bir hissəsi, Qars Aleksandropol-Culfa dəmir yolu da daxil idi. Məhz bu məqam Zaqafqaziya Seymi üçün sonun başlanğıcı hesab oluna bilər.

Qeyri-müsəlman nümayəndələrin xarici qüvvələr ilə yaxınlaşmaq meyilləri üzə çıxır. Yarandığı gündən Azərbaycan nümayəndələrini türkyönümlü adlandıran gürcü menşevikləri almanlar ilə separat danışıqlara başlayır. Almaniya nümayəndəsi general Fon Kress ilə danışıqlar aparan gürcü fraksiyası Federativ Zaqafqaziya Respublikası tərkibindən çıxmaq və Gürcüstanın müstəqilliyini elan etmək haqqında düşünürdü. 1918-ci il mayın 25-də Zaqafqaziya Seyminin müsəlman fraksiyasının iclası keçirildi. İclasda Cənubi Qafqazda siyasi vəziyyətin dəyişilməsi ilə əlaqədar olaraq oxunmuş rəsmi bəyanatda deyilirdi ki, Zaqafqaziya Seyminin gürcü fraksiyası, gürcü sülh nümayəndə heyəti üzvləri Batumda gizli danışıqlar aparır, ayrılmağa və Gürcüstanın müstəqilliyini elan etməyə hazırlaşırlar. Zaqafqaziya

Seyminin 1918-ci il mayın 25-də Fətəlixan Xoyskinin sədrliyi ilə keçirilən iclasda Zaqafqaziya (Cənubi Qafqaz) xalqlarınının vahid idarəçilik sistemində birləşdirmək səylərinin mümkün olmadığı və Zaqafqaziya Federativ Respublikasının parçalanmasının labüd olması fikirləri səsləndi.

Belə şəraitdə, may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclasında gürcü nümayəndələri Seymi tərk edərək öz müstəqil dövlətlərini yaratmaq haqqında bəyanat verdilər. Mayın 26-da Seymdə çıxışında İ.Sereteli Seymin ləğvini əsaslandırmağa çalışdı ki, bu qurum uzunömürlü olmayacaq, çünki onun tərkibində olan xalqlar arasında birlik yoxdur (Kazımzade, 2010, s. 118). Qurum özünün buraxılması haqqında qərar qəbul etdi. Gürcü fraksiyasının Seymdən ilk çıxan və müstəqilliyini elan edən tərəf oldu. Buna baxmayaraq azərbaycanlı nümayəndələri bu qurumun dağılmasında əsas günahkar kimi elan etdilər. Azərbaycanı türkyönümlülükdə ittiham edən gürcü menşevikləri özlərinin Almaniya ilə separat razılığının olduğunu unudurdular. Lakin unutmaq olmaz ki, məhz Seymin qeyri-müsəlman fraksiyalarının nümayəndələrinin müsəlmanlara olan qərəzli münasibətinin, Azərbaycan ərazisində törədilmiş qırğınlar Azərbaycan nümayəndə heyətini Osmanlıya yönəlməyə məcbur etmişdi. Yaranmış vəziyyətlə əlaqədar, mayın 27-də Seymdə təmsil olunan Azərbaycan fraksiyasının nümayəndələri fövqəladə iclas keçirir və Azərbaycan Müvəqqəti Milli Şurasının yaradılması qərarına gəlir.

Zaqafqaziya Federasiyanın dağılması ilə keçmiş İmperiya torpaqlarınnın bir çoxu muxtariyyətini və müstəqilliyini elan etdi. Lakin zaman göstərdi ki, bu müstəqilliyi elan etmək, onu qorumaqdan daha asan olmuşdu. Müstəqillik elan etmiş regional elitalar öz müstəqilliklərini müdafiə etmək üçün nə lazımi gücə, nə də sosial dəstəyə malik deyildilər. Təbii ki, bu anda Mərkəzi də unutmaq olmaz. Cənubi Qafqazın müstəqilliyini elan edib, azad idarəçiliyə keçmək planları V.Lenin və onun tərəfdaşlarının planları ilə üst-üstə düşmürdü. Lakin 1918-ci ildə mərkəzdəki bolşeviklərin Cənubi Qafqaza hərbi müdaxiləsi mümkün olmadığından onlar yerli partiya hüceyrələrini və kütlələr arasında təşviqatı gücləndirməyə başladılar (Muxanov, 2014, s. 175). İnqilabdan sonrakı ilk aylarda bolşevik liderləri müstəqillik əldə edən xalqlarla həmrəylik ifadə etməkdən çəkinmədikləri halda yerli muxtariyyətlərə yalnız bir müddət göz yuma bildilər. Regiondakı qüvvələr balansını pozmadan, V. Lenin Cənubi Qafqazla bağlı münasibətdə son dərəcə ehtiyatlı davranmağa üstünlük verirdi.

Qeyd edildiyi kimi Cənubi Qafqazda müstəqil respublikalar yarandı. Bunlardan biri də 28 may 1918-ci ildə yaranmış və müsəlman şərqinin ilk parlamentli respublikası olan Azərbaycan Xalq Cumhuriyyəti idi (Darabadi, 2012, s. 5). Cənubi Qafqazda yaranmış yeni müstəqil respublikalar fərqli xarici siyasət istiqamətlərini müəyyənləşdirmişdilər. Azərbaycan

əsasən qonşu Osmanlı Türkiyəsinə meyl edirdi və bunun məntiqi nəticəsi kimi 1918-ci ilin 4 iyununda Batumda AXC ilə Osmanlı dövləti arasında sülh, dostluq və hərbi yardım daxil olmaqla hərtərəfli yardım haqqında saziş imzalanmışdı (Darabadi, 2012, s.74). Digər yeni dövlətlərdən Ermənistan Antantadan, Gürcüstan Almaniyadan himaye gözləyirdi. Lakin bolşeviklərin Cənubi Qafqazın sovetləşməsi və vahid idarəçilikdə birləşdirilməsi ideyası hər gün bir az daha qabarırdı. Bolşeviklərin Zaqafqaziya respublikalarının sovetləşdirilməsi ilə bağlı aydın və ardıcıl planı yox idi. Cənubi Qafqazda Sovet hakimiyyətinin qurulması üçün genişmiqyaslı hərbi-siyasi kampaniyanın başlanması 1920-ci ilin martına təsadüf edir. Sovetləşdirmə vəzifələrini həyata keçirmək üçün RKP (b) MK-nın aprel ayında Orconikidzenin başçılığı ilə Qafqaz Büro (Qafqaz Bürosu) yaradıldı.

İlk mərhələdə neft ehtiyatı ilə zəngin olan Azərbaycanın sovetləşdirilməsi məsələsi dururdu. XI ordunun Azərbaycana daxil olması və ADR hökumətinin devrilməsi şiddətli müqavimətə və sovet əleyhinə kütləvi etirazlara səbəb olmadı (Muxanov, 2014, s. 175). 1920-ci il aprelin 28-də XI Ordunun İnqilabi Hərbi Şurası V. İ. Leninə teleqram: "*Çox milyon dollarlıq neft ehtiyatları indi beynəlxalq burjuaziyanın əlindən alınıb və proletariatın mülkiyyətinə çevrilib*" Q. Orconikidze qonşu Ermənistan və Gürcüstanda da sovetləşdirmə kampaniyanı davam etdirməkdə israr etsə də, Mərkəz Polşa ilə sərhəddəki vəziyyətlə əlaqədar olaraq bunu ləngitmək əmrini verir. Yalnız Q.Orconikidzenin ciddi səyləri nəticəsində 2 dekabr 1920-ci ildə Ermənistanda bolşevik rejimi bərqərar oldu. 1920-ci ilin sonunda bolşeviklər Cənubi Qafqazla bağlı planlarının ilkin mərhələsini başa vuraraq dövlətlərin müstəqilliklərinə son qoyur və mövqeləri xeyli möhkəmləndirirlər.

Cənubi Qafqaz dövlətlərinin birləşdirməyin potensial faydaları haqqında düşünən Lenin bu yolda fəaliyyətin davam etdirilməsinin tərəfdari idi. Azərbaycanın RSFSR-dəki nümayəndəsi B.Şahtaxtinski yazdığı məktubda qeyd edir ki, "*Zaqafqaziyada milli sülh yaratmaq, ərazilər, otlaqlar və s. ilə bağlı bütün mübahisəli məsələləri həll etmək, Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarının birləşdirilməsi ən məqbul və məqsədəuyğun olardı*" (Obrazovanie SSSR. 1949, s. 86).

**Nəticə**

Gürcü həmkarlarının etirazlarına baxmayaraq, 1921-ci il noyabrın 3-də RKP (b) MK Qafqaz Bürosunun birgə Plenumu federativ birliyin bağlanması haqqında qərar qəbul etdi. Azərbaycan imperiyanın süqutundan sonra Cənubi Qafqazın vahid dövlətçilik, ortaq gələcək ideyaları ilə hərəkət edərək burada ümumi idarəçilik altında yaşamağın mümkünlüyünə inanmışdı. Lakin hadisələrin sonrakı cərəyanı göstərdi ki, qonşu xalqlar bu ideyalara bir o qədər

də sadiq qalmamışlar. Azərbaycana qarşı ərazi iddiaları irəli sürən, qırğınlar törədən qonşuları ilə ortaq gələyəcin mümkün olmadığını bariz dərk edən M. Ə. Rəsulzadə, F. X. Xoyski, M. H. Hacınski, Ş. Rüstəmbəyli, Ə. M. Topçubaşov, N. B. Yusifbəyli və d. Azərbaycanın siyasi elitası müstəqilliyin mümkün və hətta vacib olduğu qənaətinə gəlmişdir. Fövqəladə, mürəkkəb bir şəraitdə aparılan fəaliyyətin nəticəsində 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin əsasını qoymuşlar. Azərbaycanda müstəqil dövlət institutunu yaradan milli elita azərbaycançılıq məfkurəsinin inkişafına nail olmuşlar.

## Kaynaklar

*Azərbaycan tarixi.* (2008). (C. V). Elm.

Həsənov, R. (2020). Cənubi Qafqaz Dövlətçilik sistemində Azərbaycan siyasi xadimlərinin fəaliyyəti (1918-ci il aprel-1918-may). *Akademik Tarih ve Düşünce Dergisi*, *7* (1), 634-649.

Rüstəmov, R. H., Rəhmanzadə, Ş. F., Məmmədov,Ə. F., Əliyeva, İ. H. (2018). *Azərbaycan Xalq Cumhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü*. Turxan NPB.

Seymin müsəlman fraksiyasının iclasının protokolu. 31.03.1918.//ARDA, f.970, s.1, i.1, v.6.

Bagirova, İ. S. (2007). *İnteqraçionnıy proçes na Yujnom Kavkaze i politika velikix derjav v istoriçeskoy retospektive XX veka.* Kavkaz i qlobalizaçiya.

Bagirova, İ. S. (2014). Put k nezovisimosti: ot Kavkazskoqo edinstva k suverennomu qosudarstvu (aprel-may 1918 qoda). *Diplomatiya aləmi.* 37.

Balayev, A. Q. (1998). *Azerbaydjanskoe naçionalnoe dvijenie v 1917-1918 qq.* Elm.

Qasanlı, C. P. (2011). *Russkaya revolyuçiya i Azerbaycan. Trudniy put nezovisimosti.1917-1920.* (2011) Moskva- Flinta.

Darabadi, P. İ. (2012). *Voenno-politiçeskaya istoriya Azerbaydjana (1917-1920-qq.).* Kavkaz.

Kazımzade, F. (2010). *Borba na Zakavkazye (1917-1921).* Stokholm-CA&CC Press.

Kaçaznuni, O. (1990). *Daşnaksutyun bolşe neçeqo delat*. Elm.

Mamedzade, N. N. (2018). Bitva za vıjıvanie Azerbaydjanskaz frakçiya Zakavkazskoqo Seyma prilaqala oqromnse usilie dlya spasenie svoeqo naroda. *Region plus.* 9 (361).

Mustafazade, R. S. (2006). *Dve respubliki. Azerbaydjano-rossiyskie otnoşeniya v 1918-1922 qq*. Moskva.

Muxanov, V. M. (2014). *K istorii sovetizaçii Zakavkaziya (1920-1921).* Kavkazskiy sbornik.

Muxanov, V. M. (2019). *Kavkaz v perelomnuyu epoxu*. Modest Kolerov

*Obrazovanie SSSR: Sbornik dokumentov 1917–1924.* (1949). Moskva-Leninqrad. İzdatelstvo Akademii Nauk SSSR.

Payps, R. (2005). *Russkaya revolyuçiya.* Zxarov.

Rumyantsev, S. (2011). Sovetskaya naçionalnaya politika v Zakavkazye: konstruirovanie naçionalnıx qraniç, istoriya i kultur.